Yeni MÜSAVAT
N 215 (8825) 27 noyabr 2025

# Kreditlə oxuyan rəssam - tələbənin həyat hekayəsi

**Rənglərin insan həyatına gətirdiyi sehrli nüanslar var - bəzən parlaq bir ton gözümüzdə sönür, bəzən də ən qaranlıq məqamdan yeni bir işıq, yeni bir palitra doğur. Tale də elə budur: özünəməxsus, gözlənilməz və heç vaxt təkrarlanmayan. Gənc rəssam Əli İskəndərlinin həyat hekayəsi isə bu qəribəliyin ən canlı nümunələrindəndir.**



Əli dünyaya gələndə hər şey adi görünürdü, lakin aylardan sonra ailə hiss etməyə başladı ki, o, səsləri eşitmir. Ətraf aləmin səsləri ona çatmasa da, rəngləri duymaq, işığı hiss etmək kimi qeyri-adi bir qabiliyyəti vardı. Bu əngəl onun yolunu bağlamadı, əksinə, həyatına açılan yeni qapı oldu. Əvvəl anası Xatirə xanımın dəstəyi, sonra isə özünün inadkarlığı və iradəsi ilə qarşısına çıxan bütün maneələri aşmağı bacardı.

Uşaq bağçasından tutmuş məktəb illərinə qədər bir çox çətinlik yaşasa da, Əli heç vaxt geri çəkilmədi. Onun üçün rənglər, sadəcə, bir alət deyil, dünyanı duyma üsuludur. Bu duyum onu nəinki cəmiyyətin stereotiplərindən kənara çıxartdı, hətta seçilmiş bir istedad kimi irəliyə daşıdı.

Bu gün söhbət etdiyim gənc artıq nüfuzlu yarışmaların laureatıdır, sərgilərin iştirakçısıdır və ən əsası, öz həyatını rənglərin dili ilə yazmağı bacaran bir sənətkardır.

Müsahibimiz Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının tələbəsi, gənc rəssam Əli İskəndərlidir.

**- İlk olaraq sizi tanıyaq... Bizə özünüz haqqında danışın.**

- Mən, Əli Zəka (Əli İskəndərli) 2003-cü il noyabrın 18-də Bakı şəhərində anadan olmuşam. Ailəmiz 3 nəfərdən ibarətdir: anam, mən və bacım. 2010-2019-cu illərdə Xətai rayonu, 55 saylı tam orta məktəbdə təhsil almışam. Mən dünyaya qüsursuz gəldim. Amma qısa vaxtdan sonra - 8 aylığımda anam mənim səsə reaksiya vermədiyimi hiss edib. Və o zamandan anamın həyatla mübarizəsi başlayıb. Anam mənim təhsilli, savadlı bir insan kimi yetişdirməyə çalışdı. O, məni heç vaxt qüsurlu və əngəlli hesab etmədi. Anam mənə təhsil verib, öyrədib. O, çox fədakardır, dünyanın ən yaxşı analarından biridir..

Hazırda Azərbaycan Rəssamlıq Akademiyasının "Təsviri sənət və sənətşünaslıq" fakültəsinin "Sənətşünaslıq (İncəsənət əsərlərinin bərpası və ekspertizası) ixtisasının III kurs tələbəsiyəm. Bu yola isə lap kiçik yaşlarımda başladım. 4 yaşım olarkən anam mənə bir albom və sadə karandaşlar hədiyyə etdi. İlk vaxtlarda cizgi film qəhrəmanlarını çəkirdim. Bundan sonra anam məni rəsm dərnəyinə qoydu. O zaman dərnəyin rəhbəri Nərmin Abdullayeva idi. O mənə çox dəstək oldu. Dərnəkdə artıq rəssamlığın ilk sirlərini öyrənməyə başladım.

**- Eşitmə qüsurunuz olduğunu dediniz. Amma təbiətə, onun səsinə bağlı insansınız. Rəsmlərinizdə təbiətə yer verirsiniz. Təbiəti necə duyursunuz?**

- Bəli, mən eşitmə məhdudiyyətliyəm. Amma mən səssiz qalmadım. İlk vaxtlarda anam mənim səsim, sözüm, eşitməm oldu. O, mənə həmişə inandı. Eşitmə cihazı taxıldıqdan sonra səslər gəlməyə başladı və mən bu səslərə heyran oldum. Rəngarəng təbiət mənzərələri, ağaclar, güllər, dağlar və s. çəkməyə başladım. Təbiətə aid olan tabloda içərisində idealıma görə rəsm çəkməyə başlamışam. Mən duyğularımı daha çox təbiətdə gördükdən sonra artıq etüd çəkməyə başladım.



**- Ən böyük arzunuz nədir? Akademiyanı bitirdikdən sonra rəssam kimi çalışmaq istəyirsiniz, yoxsa xaricdə təhsilinizi davam etdirmək?**

- Ən böyük arzum incəsənət növlərindən biri olan təsviri sənətin sahələri (qrafika, rəngkarlıq, heykəltəraşlıq, dekorativ tətbiqi sənət, memarlıq, dizayner) üzrə peşəkar bir kadr olmaq idi. Allah məni arzuma qovuşdurdu. Mən Rəssamlıq Akademiyasına qəbul oldum və sənətşünaslıq ixtisasını seçdim. Buna görə çox sevinirdim. Hazırda bu ixtisas üzrə təhsil alıram və gələcəkdə təsviri sənət sahələrində hərtərəfli qabiliyyəti olacağama və inkişaf edəcəyimə inanıram. Akademiyanı bitirdikdən sonra nə magistratura dərəcəsi qazanmaq, nə də xaricdə təhsil almaq fikrində deyiləm.

**- Yerli və xarici rəssamlardan kimi özünüzə kumir görürsünüz. Ən çox hansı əsəri bəyənirsiniz?**

- Kumirim yerli rəssam Əzim Əzimzadə və xarici rəssam Leonardo da Vinçidir. Ölkəmizin karikaturaçılarından biri və bu sənətin banisi Ə.Əzimzadənin əsərləri ilə çox maraqlanıram. Mən özümü onun davamçısı kimi görürəm. Leonardo da Vinçinin hərtərəfli inkişaf etmiş bir rəssam idi. Ona görə əsərləri çox möhtəşəm idi. Mən bu əsərləri çox təhlil edirəm. Mən özümü onun da davamçısı hesab edirəm. Çünki onun rəssamlıq yoluna daha yaxınam.

**- Əsərlərinizdə daha çox hansı mövzuya yer verirsiniz? Çəkdiklərinizdən satdığınız olubmu? Neçəyə başa gəlib?**

- Mən rəngkarlıq və qrafika növləri üzrə mənzərə, portret, natürmort, animalist, marina, karikatura, məişət janrlarında rəsmləri daha çox çəkmişəm. Bəli, mənim xeyli sayda əsərlərim satılıb. Amma satışdan əvvəl sərgilərdə nümayiş olunub. Əsərlər müxtəlif qiymətlərə satılıb. Ümumiləşdirsək, 250 AZN civarında satılıb.

**- Yaxşı rəssam ilk növbədə nəyi duymalıdır?**

- Rəssam əvvəlcə gördüyü hadisələri, aldığı məlumatları, hiss və duyğularını qavramalıdır.

**- Akademiyada təhsil alırsınız, təhsil haqqını ödəməkdə çətinlik çəkmirsiniz ki?**

- Mən ali məktəbə ödənişli əsaslarla qəbul olundum. Təəssüf ki, ödənişlə bağlı çətinliyimiz yarandı. Ödəniş etmək üçün heç bir imkanımız yox idi. Mən isə təhsilimi davam etdirmək, rəssamlığın sirlərini artıq akademik səviyyədə almaq istəyirdim. Buna görə Təhsil Tələbə Kredit Fonduna müraciət etməli olduq. İnşallah, akademiyanı bitirdikdən sonra təhsil haqqımı ödəməyə ümidliyəm.

**- Bəzən hansısa fiziki qüsuru olan insanlar cəmiyyətə atılmaq, aktiv həyat yaşamaq istəmirlər, özlərinə qapanırlar. Onlara nə deyərdiniz?**

- Mən cəmiyyətdə fiziki məhdudiyyəti olan insanlara onların kölgədə qalmaması, özlərini və şəxsi bacarıqlarını inkişaf etdirmələri üçün dəstək olmalı və cəmiyyətdə münasibətlərini qurmağa kömək etməliyəm. Hər kəs onlara öyüd-nəsihət verməli, dəstək olmalıdır. Çünki onlar digər insanlardan fərqlənməməli, cəmiyyətdə, təhsildə, məişətdə geri qalmamalı və çətin də olsa hədəflərinə doğru getməlidirlər.

Mən gələcəkdə sevdiyim işdə çalışmaq, cəmiyyətə faydalı bir insan olmaq istəyirəm. Gələcəkdə özümü sənətimdə uğurlu, insanlara kömək edən bir xeyriyyəçi kimi görmək istəyirəm.

❑ Səhanə RƏHİMLİ,
"Yeni Müsavat"